## “Küçə uşaqları”na dair seçmə statistik müayinənin nəticələrinin təhlili

### *Sorğu olunmuş küçə uşaqlarının əsas sosial-demoqrafik xarakteristikası*

Müayinənin keçirilməsinin əsas məqsədi küçə uşaqlarının qarşılaşdıqları problemlər, onların küçədə işləməsinin səbəbləri, məşğul olduqları əmək növləri, eləcə də məruz qaldıqları təhlükələr barədə ətraflı məlumat əldə edilməkdən ibarət olmuşdur.

Statistik müayinə Bakı şəhərində yaşayan və seçməyə düşmüş 9-17 yaşda olan 208 baxımsız küçə uşağını, o cümlədən 165 oğlan və 43 qızı əhatə etmişdir. Sorğu olunanların təxminən yarısı 15-17 yaşında olan uşaqlar olmuşdur.

***Uşaqların cins və yaş tərkibi***

| *Yaş* | *Cəmi* | | *o cümlədən* | | | | *Yekuna görə %-lə* | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | *kişilər* | | *qadınlar* | | | | |
| | *nəfər* | *%* | *nəfər* | *%* | *nəfər* | *%* | *cəmi* | *kişilər* | *qadınlar* |
| ***9-17 yaşda uşaqlar - cəmi*** | **208** | ***100,0*** | **165** | ***79,3*** | **43** | ***20,7*** | ***100,0*** | ***100,0*** | ***100,0*** |
| *o cümlədən:* | | | | | | | | | |
| ***9*** | **6** | ***100,0*** | **2** | ***33,3*** | **4** | ***66,7*** | ***2,9*** | ***1,2*** | ***9,3*** |
| *10* | 17 | *100,0* | 12 | *70,6* | 5 | *29,4* | *8,2* | *7,3* | *11,6* |
| *11* | 15 | *100,0* | 10 | *66,7* | 5 | *33,3* | *7,2* | *6,1* | *11,6* |
| *12* | 21 | *100,0* | 19 | *90,5* | 2 | *9,5* | *10,1* | *11,5* | *4,6* |
| *13* | 24 | *100,0* | 21 | *87,5* | 3 | *12,5* | *11,5* | *12,7* | *7,0* |
| *14* | 27 | *100,0* | 21 | *77,8* | 6 | *22,2* | *13,0* | *12,7* | *14,0* |
| ***10-14*** | **104** | ***100,0*** | **83** | ***79,8*** | **21** | ***20,2*** | ***50,0*** | ***50,3*** | ***48,8*** |
| *15* | 30 | *100,0* | 25 | *83,3* | 5 | *16,7* | *14,5* | *15,2* | *11,6* |
| *16* | 34 | *100,0* | 28 | *82,4* | 6 | *17,6* | *16,3* | *17,0* | *14,0* |
| *17* | 34 | *100,0* | 27 | *79,4* | 7 | *20,6* | *16,3* | *16,3* | *16,3* |
| ***15-17*** | **98** | ***100,0*** | **80** | ***81,6*** | **18** | ***18,4*** | ***47,1*** | ***48,5*** | ***41,9*** |

Uşaqlara verilmiş suallar nəticəsində onların təxminən yarısının doğum haqqında şəhadətnamə və ya şəxsiyyət vəsiqəsinə malik olduqları aşkarlanmışdır. Hər on uşaqdan biri bu sənədlərə malik olmadığını, 40 faizi isə ümumiyyətlə, onların mövcudluğu barədə heç nə bilmədiklərini söyləmişdir.

Müayinənin nəticələrinə görə, sorğu olunanların yarıdan bir qədər çoxu Bakı şəhərinə xarici ölkələrdən və ya ölkənin digər şəhər və rayonlarından gəlmişlər. Oğlanların 56 faizi, qızların isə 12 faizi Bakı şəhərində anadan olmuş, müvafiq olaraq 42 və 84 faizi ölkənin regionlarından gəlmişlər.

***Uşaqların Bakı şəhərindən əvvəl yaşadıqları ərazilər üzrə bölgüsü***




Bakı şəhərinin yerli sakini olmayan küçə uşaqlarının hər beş nəfərindən biri Azərbaycanın paytaxtında 2-3 il, hər iki nəfərindən biri 4-7 il, hər dörd nəfərindən biri isə 7 ildən artıq yaşadığını bildirmişdir.

Müayinə aparılan dövrdə sorğu olunan uşaqların 35 faizi məktəbdə təhsil aldıqlarını və hər gün məktəbə getdiklərini bildirmişdir. Sorğuda iştirak edən uşaqların 19 faizi və ya hər 7 oğlandan biri və hər 3 qızdan biri məktəbə getmədiyini söyləmişdir.

***Uşaqların təhsil səviyyəsinə görə bölgüsü***

| | *Uşaqların yaş qrupları* | *Cəmi* | | *o cümlədən* | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | *heç bir zaman məktəbə getməyənlər* | | *1, 2, 3 və ya 4-cü sinifləri bitirənlər* | | *5, 6, 7, 8 və ya 9-cu sinifləri bitirənlər* | | *10-cu sinfi bitirənlər* | |
| | | *nəfər* | *%* | *nəfər* | *%* | *nəfər* | *%* | *nəfər* | *%* | *nəfər* | *%* |
| ***Cəmi*** | ***9-17*** | **208** | ***100,0*** | **39** | ***18,8*** | **36** | ***17,2*** | **111** | ***53,4*** | **22** | ***10,6*** |
| *kişilər* | | 165 | *100,0* | 25 | *15,1* | 26 | *15,8* | 95 | *57,6* | 19 | *11,5* |
| *qadınlar* | | 43 | *100,0* | 14 | *32,6* | 10 | *23,2* | 16 | *37,2* | 3 | *7,0* |
| ***cəmi*** | ***9*** | **6** | ***100,0*** | **1** | ***16,7*** | **5** | ***83,3*** | **-** | **-** | **-** | **-** |
| *kişilər* | | 2 | *100,0* | - | - | 2 | *100,0* | - | - | - | - |
| *qadınlar* | | 4 | *100,0* | 1 | *25,0* | 3 | *75,0* | - | - | - | - |
| ***cəmi*** | ***10-14*** | **104** | ***100,0*** | **38** | ***36,5*** | **18** | ***17,3*** | **48** | ***46,2*** | **-** | **-** |
| *kişilər* | | 83 | *100,0* | 25 | *30,1* | 13 | *15,7* | 45 | *54,2* | - | - |
| *qadınlar* | | 21 | *100,0* | 13 | *61,9* | 5 | *23,8* | 3 | *14,3* | - | - |
| ***cəmi*** | ***15-17*** | **98** | ***100,0*** | **-** | **-** | **13** | ***13,3*** | **63** | ***64,3*** | **22** | ***22,4*** |
| *kişilər* | | 80 | *100,0* | - | - | 11 | *13,8* | 50 | *62,4* | 19 | *23,8* |
| *qadınlar* | | 18 | *100,0* | - | - | 2 | *11,1* | 13 | *72,2* | 3 | *16,7* |

İcbari orta təhsil almalarını dayandırmış və ya heç bir zaman təhsil almayan uşaqlar bunun əsas səbəbi kimi kasıb olduqlarını və ya gələcəklərini qurmaq üçün pul qazandıqlarını göstərmişlər.

### *Uşaqların təhsildən yayınma səbəblərinə görə bölgüsü*




### *Küçə uşaqlarının ailə və yaşayış vəziyyəti*

Sorğu olunan küçə uşaqlarının ailə vəziyyəti barədə məlumatların təhlili sübut edir ki, məhz ailə problemləri küçə uşaqlarının yaranmasına şərait yaradır.

Sorğu olunan 208 uşağın 94 faizinin ailəsi olmuşdur. Bununla belə, uşaqların 61 faizinin hər iki valideyni, təxminən üçdə birinin natamam ailəsi, yəni təkcə anası və ya atası, digərlərinin isə yalnız yaxın qohumları olmuşdur. Küçə uşaqlarının ailələrinin 90 faizində, özləri də daxil olmaqla, orta hesabla 18 yaşına çatmayan 2 uşaq olmuşdur.

**Sorğu olunan uşaqların ailələrinin tərkibi**

| | *Cəmi* | | *o cümlədən* | | | | *Yekuna görə %-lə* | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | *kişilər* | | *qadınlar* | | | | |
| | *cəmi* | *%* | *cəmi* | *%* | *cəmi* | *%* | *cəmi* | *kişilər* | *qadınlar* |
| ***Cəmi*** | **208** | ***100,0*** | **165** | ***79,3*** | **43** | ***20,7*** | ***100,0*** | ***100,0*** | ***100,0*** |
| *o cümlədən:* | | | | | | | | | |
| *- hər iki valideyni olanlar* | 126 | *100,0* | 100 | *79,4* | 26 | *20,6* | *60,6* | *60,6* | *60,4* |
| *- təkcə anası olanlar* | 55 | *100,0* | 44 | *80,0* | 11 | *20,0* | *26,4* | *26,7* | *25,6* |
| *- təkcə atası olanlar* | 10 | *100,0* | 9 | *90,0* | 1 | *10,0* | *4,8* | *5,5* | *2,3* |
| *- digər yaxın qohumları olanlar* | 5 | *100,0* | 3 | *60,0* | 2 | *40,0* | *2,4* | *1,8* | *4,7* |
| *- ailəsi olmayanlar* | 12 | *100,0* | 9 | *75,0* | 3 | *25,0* | *5,8* | *5,4* | *7,0* |

Küçə uşaqlarının mövcudluğunun səbəblərindən biri də onların ailələrində yaranan maliyyə problemləridir. Müayinənin nəticələrinə görə, hər iki valideyni olan 126 uşağın cəmi 9 faizinin həm atası, həm də anası işləyir.

Valideynlərinin biri və ya hər ikisi olan uşaqların 75 faizinin təkcə anası və ya atası işləyir, hər beş uşaqdan birinin heç bir valideyni işləmir.

Uşaqların 40 faizinin ailəsi Bakı şəhərindən kənarda yaşayır. Hər üç oğlandan birinin və qızların 70 faizinin ailəsi ölkənin regionlarında, əsasən də Yevlax, Bərdə, Ağdaş və Ağsu rayonlarında yaşayırlar.

Sorğu olunan hər 2 uşaqdan birinin ailəsi öz yaşayış yerini 1988-ci ildən, yəni Ermənistanın Azərbaycana qarşı təcavüzə başladığı dövrdən sonra dəyişmişdir ki, bu da ölkədə küçə uşaqlarının formalaşmasına təsir edən amillərdən biridir.

Küçə uşaqlarının 52 faizi öz ailələri ilə birgə qalır və ya onlarla əlaqəni kəsməyiblər. Uşaqların 39 faizi qohumlarının və 8 faizi dostlarının yanında yaşayır.

***Uşaqların kimlə və ya harada yaşaması üzrə bölgüsü***




Sorğuda iştirak edən uşaqların 57 faizi ailələri və ya qohumları ilə birlikdə kirayədə yaşayır. Bununla belə, oğlan və qızların yaşayış şəraiti bir-birindən xeyli fərqlənir. Qızların 75 faizi, oğlanların isə 53 faizi kirayədə, müvafiq olaraq 7 və 36 faizi ayrıca evlərdə (mənzillərdə), 16 və 7 faizi yataqxanalarda, 2 və bir faizi kommunal mənzillərdə məskunlaşmışdır.

***Uşaqların yaşayış şəraitinə görə bölgüsü***

| | *Uşaqların yaş qrupları* | *Cəmi* | | *o cümlədən, yaşayırlar* | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | *ayrıca mənzildə* | | *kommunal mənzildə* | | *kirayədə* | | *yataq-xanada* | | *atılmış və ya yaşayış üçün yararlı olmayan evlərdə* | |
| | | *nəfər* | *%* | *nəfər* | *%* | *nəfər* | *%* | *nəfər* | *%* | *nəfər* | *%* | *nəfər* | *%* |
| ***Cəmi*** | ***9-17*** | **208** | ***100,0*** | **62** | ***29,8*** | **3** | ***1,4*** | **119** | ***57,2*** | **19** | ***9,2*** | ***5*** | ***2,4*** |
| *kişilər* | | 165 | *100,0* | 59 | *35,8* | 2 | *1,2* | 87 | *52,7* | 12 | *7,3* | *5* | *3,0* |
| *qadınlar* | | 43 | *100,0* | 3 | *7,0* | 1 | *2,3* | 32 | *74,4* | 7 | *16,3* | - | - |
| ***cəmi*** | ***9*** | **6** | ***100,0*** | - | - | - | - | **4** | ***66,7*** | **2** | ***33,3*** | - | - |
| *kişilər* | | 2 | *100,0* | - | - | - | - | 2 | *100,0* | - | - | - | - |
| *qadınlar* | | 4 | *100,0* | - | - | - | - | 2 | *50,0* | 2 | *50,0* | - | - |
| ***cəmi*** | ***10-14*** | **104** | ***100,0*** | **31** | ***29,8*** | **1** | ***1,0*** | **61** | ***58,6*** | **10** | ***9,6*** | ***1*** | ***1,0*** |
| *kişilər* | | 83 | *100,0* | 29 | *34,9* | - | - | 46 | *55,4* | 7 | *8,4* | *1* | *1,3* |
| *qadınlar* | | 21 | *100,0* | 2 | *9,5* | 1 | *4,8* | 15 | *71,4* | 3 | *14,3* | - | - |
| ***cəmi*** | ***15-17*** | **98** | ***100,0*** | **31** | ***31,7*** | **2** | ***2,0*** | **54** | ***55,1*** | **7** | ***7,1*** | ***4*** | ***4,1*** |
| *kişilər* | | 80 | *100,0* | 30 | *37,5* | 2 | *2,5* | 39 | *48,8* | 5 | *6,2* | *4* | *5,0* |
| *qadınlar* | | 18 | *100,0* | 1 | *5,6* | - | - | 15 | *83,3* | 2 | *11,1* | - | - |

Ailələri olan küçə uşaqlarının böyük əksəriyyəti valideynlərinin və ya qohumlarının yanında yaşamağa üstünlük verir. Belə ki, ailəsi olan küçə uşaqlarının 85 faizi, o cümlədən qızların 93 faizi, oğlanların isə 83 faizi həmişə öz ailəsinin və ya qohumlarının yanında gecələdiyini bildirmişdir.

***Uşaqların evdə yaşamalarının (gecələmələrinin) müddət üzrə bölgüsü, faizlə***

| | *Cəmi* | *o cümlədən* | |
|---|---|---|---|
| | | *kişilər* | *qadınlar* |
| ***Cəmi*** | *100,0* | *100,0* | *100,0* |
| *- həmişə evdə (ailəsinin və ya qohumlarının yanında)* | *84,7* | *82,7* | *92,5* |
| *- yay mövsümündə evdən kənarda* | *11,3* | *12,3* | *7,5* |
| *- həftələrlə (1 aya qədər) evdən kənarda* | *1,5* | *1,9* | - |
| *- həmişə evdən kənarda* | *1,0* | *1,3* | - |
| *- həftədə 2-3 dəfə evdən kənarda* | *0,5* | *0,6* | - |
| *- cavab verməyə çətinlik çəkirlər* | *1,0* | *1,2* | - |

Mövsümi və ya daimi olaraq evindən kənarda yaşayan uşaqların hər dörd nəfərindən üçü bunu pul qazanıb ailələrinə kömək etmək üçün etdiyini bildirmişdir.

***Uşaqların evdən kənarda yaşamasının(gecələməsinin) səbəblər üzrə bölgüsü***




Sorğu olunan küçə uşaqlarının 80 faizi 2007-ci ilin yayında öz ailələrinin və ya qohumlarının yanında, 14 faizi fəaliyyəti dayandırılmış zavod və fabriklərin binalarında və ya tanışlarının yanında, 6 faizi isə mənzillərin zirzəmilərində, çardaqlarında və atılmış evlərdə gecələmişlər. Bir oğlan isə yayda gecələri açıq səma altında, küçə və parklarda keçirdiyini söyləmişdir.

Qış aylarında küçə uşaqları daha çox öz ailəsi, qohumları və ya tanışları ilə birgə yaşamağa çalışırlar. Ötən qış uşaqların 82 faiz öz ailəsinin və ya qohumlarının, 11 faiz isə tanışlarının yanında, 7 faizi isə atılmış evlərdə, fəaliyyəti dayandırılmış zavod və fabriklərin binalarında və mənzillərin zirzəmilərində, çardaqlarında gecələmişdir.

***Küçə uşaqları əməyinin xarakteristikası***

Müayinənin məlumatlarına görə, bütün sorğu olunan küçə uşaqlarının gəlir mənbəyi vardır. Şüşə qabları və metal tullantıları yığıb təhvil verməyi və dilənməyi əmək fəaliyyətinin bir növü hesab etsək, o zaman bütün sorğu olunan küçə uşaqlarını işləyənlər kateqoriyasına aid etmək olar. Küçələrdəki uşaqların yarısı maşın yumaq (25 faiz) və dilənmək (25 faiz) yolu ilə pul qazanırlar.

***Uşaqların gəlir mənbəyi üzrə bölgüsü, faizlə***

| | *Cəmi* | *o cümlədən* | |
|---|---|---|---|
| | | *kişilər* | *qadınlar* |
| *- İşləyənlər* | *80,3* | *88,5* | *48,8* |
| *- Valideynlərindən pul alanlar* | *2,4* | *-* | *11,6* |
| *- Humanitar yardım və müavinət alanlar* | *88,5* | *90,9* | *79,1* |
| *- Qeyri-qanuni gəlirlər hesabına dolananlar* | *42,3* | *35,7* | *67,5* |

Müayinə zamanı əldə edilən məlumatlara görə, uşaqlar bir qayda olaraq, 10-11 yaşlarında küçədə işləməyə başlayırlar. Bu uşaqların xüsusi çəkisi sorğu olunanların ümumi sayında 45 faiz təşkil etmişdir.

Oğlan uşaqları qızlara nisbətən daha erkən yaşlardan işləməyə başlayıblar. Sorğu olunan oğlanların 29 faizi 10 yaşından, qızların isə 28 faizi 11 yaşından əmək fəaliyyətinə başladıqlarını bildirmişdir.

***Gəlir əldə edən uşaqların işə başladıgı yaş üzrə bölgüsi***




Uşaqların əksəriyyəti öz ailələrinə maliyyə cəhətdən kömək göstərmək üçün işlədiyini qeyd etmişdir. Oğlanların 14 faizi ailə üzvləri tərəfindən işləməyə məcbur edildiyini qeyd etdiyi halda, qızların 44 faizi həmin səbəbi bildirmişdir. İstədiyi şeyləri almaq səbəbini oğlanların 16 faizi, qızların isə 14 faizi göstərmişdir.

***Uşaqları işləməyə kimin və ya nəyin məcbur etməsi üzrə bölgüsü***




Küçə uşaqlarının yerinə yetirdiyi işlərin xarakteri gender bölgüsü ilə əlaqədar olmuş və oğlanların çoxu fiziki əməklə məşğul olduqlarını qeyd etmişdir. Sorğu olunan oğlanların təqribən üçdən biri maşınların yuyulması, 18 faizi şüşə qabların və utilin yığılıb təhvil verilməsi, 10 faizi yük daşımaq vasitəsilə pul qazandıqlarını qeyd etdikləri halda, qızların 61 faizi dilənçilik etməklə pul qazandığını bildirmişdir.

***Uşaqların çalışdıqları işlərin növünə görə bölgüsü, faizlə***

| | *Cəmi* | *o cümlədən* | |
|---|---|---|---|
| | | *kişilər* | *qadınlar* |
| ***Cəmi*** | ***100,0*** | ***100,0*** | ***100,0*** |
| *- yük daşıyan, yük vuranlar* | *7,7* | *9,7* | - |
| *- bazarda, küçədə alver edənlərə köməklik edənlər* | *13,9* | *13,3* | *16,2* |
| *- iş və ticarət yerlərini təmizləyənlər* | *9,6* | *9,7* | *9,3* |
| *- əşyalara, mallara keşik çəkənlər* | *1,9* | *2,4* | - |
| *- maşın yuyanlar* | *24,5* | *30,9* | - |
| *- şüşə qabları və utili yığıb təhvil verənlər* | *15,5* | *18,2* | *4,7* |
| *- dilənənlər* | *25,0* | *15,8* | *60,5* |
| *- digər işlərlə məşğul olanlar* | *1,9* | - | *9,3* |

Sorğuda iştirak edən uşaqların əksəriyyəti günün işıqlı vaxtlarında əmək fəaliyyəti ilə məşğul olmuşdur. Oğlanların üçdə ikisi, qızların isə 81 faizi təkcə gündüzlər işlədiyini bildirmişdir. Qalan uşaqlar isə həm gündüzlər, həm də axşamlar əmək fəaliyyəti ilə məşğul olmuşlar. Küçə uşaqlarının 33 faizi sutkada 7 saatadək, yarıdan bir qədər çoxu 7-8 saat işlədiyini qeyd etmişdir.

Sorğu zamanı qızların 74 faizi yerinə yetirdiyi işlərin çətin olduğunu, 23 faizi isə işdən sonra çox yorulduğunu etiraf etmişdir. Oğlanlar arasında bu göstəricilər müvafiq olaraq 63 və 37 faiz təşkil etmişdir.

***Uşaqların işi necə tapmasına və ya kim tərəfindən məsləhət görülməsinə görə bölgüsü***




Əksər hallarda uşaqlar yerinə yetirdikləri işləri özləri tapmışdır. Lakin, təxminən hər dörd uşaqdan biri valideynlərinin, hər on uşaqdan biri isə yaşca böyük olan qohumlarının və ailə tanışlarının köməyi ilə işlə təmin olunmuşlar.

İşləyən uşaqların böyük əksəriyyəti (92 faizi) yerinə yetirdikləri işin müqabilində sahibkarlardan yalnız pul aldıqlarını bildirmişdir.

***İşəgötürənin (sahibkarın) uşaqlarla hesablaşma üsulları, faizlə***

| | *Cəmi* | *o cümlədən* | |
|---|---|---|---|
| | | *kişilər* | *qadınlar* |
| *- Yalnız pulla* | *91,8* | *92,1* | *90,7* |
| *- Yalnız ərzaqla (spirtli içkidən, siqaretdən başqa)* | *1,9* | *1,8* | *2,3* |
| *- Həm pul, həm də ərzaqla (spirtli içkidən, siqaretdən başqa)* | *8,2* | *7,9* | *9,4* |
| *- Əşya ilə* | *1,4* | *1,8* | *-* |
| *- Digər* | *8,7* | *6,1* | *18,6* |

Oğlan və eləcə də qızların hər beş nəfərindən dördü sorğudan əvvəlki həftə ərzində hər gün orta hesabla 3-5 manat pul qazandığını qeyd etmişdir. Oğlanların 3 faizində, qızların isə 12 faizində gündəlik gəlir 1-2 manat, müvafiq olaraq 15 və 9 faizində həmin məbləğ 6-10 manat təşkil etmişdir.

Müayinə məlumatlarına əsasən belə bir nəticəyə gəlmək olar ki, küçə uşaqlarının xərclərinin xarakteri sorğu olunanların cinsindən asılıdır. Belə ki, ərzaq məhsullarına

oğlanlar (39 faizi) və qızlar (35 faizi) təxminən eyni məbləğdə pul ödəsələr də, qızlar paltarın alınmasına qazanclarının yarıdan çoxunu, oğlanlar isə cəmi beşdə bir hissəsini xərcləmişdir. Qızlar gündəlik gəlirlərinin 9 faizini, oğlanlar isə 18 faizini siqaretlərin alınmasına sərf etmişdir.

***Uşaqların qazandığı pulları əsasən nəyə xərcləməsi üzrə bölgüsü***




Küçə uşaqlarının cins tərkibindəki fərq onların ərzaq və qeyri-ərzaq mallarına çəkdiyi xərclərin həcmində də özünü büruzə verir. Belə ki, oğlanların 53 faizi onların alınmasına gündə 2 manat, qızların isə 58 faizi 3 manat pul ödəmişdir. Ümumilikdə isə, uşaqların 96 faizi bu məqsədlərə gündə 2-3 manatdan çox olmamaq şərtilə pul xərclədiklərini bildirmişdir.

Sorğu olunan uşaqların 89 faizi müxtəlif təşkilatlardan humanitar yardım aldıqlarını qeyd etmişdir. Humanitar yardım göstərən təşkilatlar arasında ən çox "İşıqlı Ev Günərzi Küçə Uşaqları Mərkəzi"nin adı hallanır.

***Küçə uşaqlarının sağlamlığı və təhlükəsizliyi***

Müayinənin nəticələrinə görə, küçə uşaqlarının həyat tərzi onların sağlamlığına təsir edir. Sorğu olunan oğlanların cəmi 3 faizi tamamilə sağlam olduqlarını, qızların isə heç biri özünü tam sağlam hesab etmədiklərini bildirmişlər.

***Uşaqların sağlamlıqları üzrə bölgüsü***




Sorğu olunan hər on uşaqdan doqquzu İnsanın İmmunçatışmazlıq Virusu (İİV), Qazanılmış İmmunçatışmazlığı Sindromu (QİÇS) və cinsi yolla keçən xəstəliklər barədə məlumatlara malik olmadığını bildirmişdir.

Uşaqların sağlamlığını təmin edən mühüm amillərdən biri də gün ərzində kifayət qədər və düzgün qidalanmadan ibarətdir. Qızların yarıdan çoxu, oğlanların isə üçdə iki hissəsi lazımi səviyyədə qidalanmadığını qeyd etmişdir.

Küçə uşaqları müxtəlif xəstəliklərdən başqa, digər təhlükələrlə də üzləşir. Qızların üçdə ikisi və oğlanların 60 faizi iş vaxtı döyülmədiklərini bildirmişlər.

***Uşaqların işləyən zaman döyülüb-döyülməməsinə görə bölgüsü***




Uşaqların üçdə ikisi böyüklər tərəfindən onlara qarşı seksual xarakterli zorakılıq hallarının olmadığını söyləmiş, qalanları isə bu suala cavab vermək istəməmişdir.

Sorğu olunan hər beş uşaqdan ikisi küçələrdə qazandığı pulun bir hissəsini hədə-qorxu altında kiməsə verib-vermədiyini söyləməkdən imtina etmişdir. Uşaqların üçdə bir hissəsindən çoxu qazandığı pulları hədə-qorxu altında heç kimə vermədiyini, hər səkkiz nəfərdən biri isə valideynlərinə və ya qohumlarına verdiyini bildirmişdir.

***Uşaqların qazandığı pulun bir hissəsini hədə-qorxu altında kiməsə verməyə məcbur olub-olmaması üzrə bölgüsü, faizlə***

| | *Cəmi* | *o cümlədən* | |
|---|---|---|---|
| | | *kişilər* | *qadınlar* |
| ***Cəmi*** | ***100,0*** | ***100,0*** | ***100,0*** |
| *o cümlədən:* | | | |
| *- valideynlərinə və ya bacı-qardaşına* | *5,8* | *6,1* | *4,7* |
| *- yanlarında qaldığı qohumlarına* | *7,2* | *6,7* | *9,3* |
| *- haqq yığana* | *5,8* | *4,8* | *9,3* |
| *- heç kimə* | *39,4* | *40,0* | *37,2* |
| *- demək istəməyənlər* | *41,8* | *42,4* | *39,5* |

***Küçə uşaqlarının üstünlük verdikləri həyatı dəyərlər***

Sağlamlığı və həyatı təhlükə altında olan küçə uşaqları ətraf mühitə uyğunlaşmağa məcbur olurlar. Məhz buna görə, onlardan təminatlı ailələrdə valideynləri ilə birgə yaşayan həmyaşıdlarından nə ilə fərqləndikləri sualına 44 faizi həyatı daha gözəl başa düşdüklərini və insanları daha yaxşı tanıdıqlarını, dörddə bir hissəsi isə daha cəsarətli və qətiyyətli olduqlarını göstərmişlər.

***Uşaqları təminatlı ailədə yaşayan həmyaşıdlarından nə ilə fərqlənməsinə görə bölgüsü***




Küçə uşaqları ilə aparılan söhbətlərdən belə bir nəticəyə gəlmək olar ki, onların çoxu hazırkı vəziyyətlərindən razı deyildir. Belə ki, onlardan yaşamaq və oxumaq üçün əlverişli şərait təklif olunarsa, küçə həyatından və işindən imtina edib-etməyəcəkləri barədə soruşulduqda, qız (91 faiz) və oğlanların (83 faiz) əksər hissəsi küçələri tərk etmək istədiklərini bildirmişdir.

### *Uşaqlara yaşamaq və oxumaq kimi şərait təklif olunarsa, küçə həyatından və küçədəki işindən imtina edib-etməməsi üzrə bölgüsü, faizlə*

| | Cəmi | o cümlədən | |
|---|---|---|---|
| | | kişilər | qadınlar |
| **Cəmi** | **100,0** | **100,0** | **100,0** |
| o cümlədən: | | | |
| - imtina edərdilər | 84,6 | 83,0 | 90,6 |
| - imtina edərdilər, amma hərdən işləyərdilər ki, cibxərci pulları olsun | 13,9 | 16,4 | 4,7 |
| - imtina etməzdilər | 0,5 | 0,6 | - |
| - digər | 1,0 | - | 4,7 |

Sorğu əsasında müəyyən olmuşdur ki, küçə uşaqları yaşadıqları həyat tərzinin hansı səviyyədə olduğunu dərk edir və onların yarısı kiçik qardaş və ya bacılarının onların gördüyü işlə məşğul olmasını istəmədiklərini bildirmişdir.

Qeyd etmək lazımdır ki, bir oğlandan başqa bütün sorğu olunan uşaqlar Allaha inandıqlarını bildirmişdir.

Sorğu olunanların cəmi 2 nəfəri texniki peşəyə yiyələndiklərini qeyd etmişdir. Bununla belə, oğlanların 69 və qızların 61 faizi təhsil və ya təcrübə vasitəsilə hər hansı bir peşə növünü öyrənmək və müvafiq olaraq 18 və 30 faizi yalnız ümumtəhsil məktəbində oxumaq istədiyini bildirmişdir. Oğlanlar, eləcə də qızlar arasında ümumiyyətlə, təhsil almaq və ya peşə öyrənmək istəmədiyini söyləyənlərin xüsusi çəkisi böyük olmamışdır.

### *Uşaqların hər hansı bir peşəyə yiyələnmək istəməyi (məsələn, avtomobil işi, aşpazlıq və s.) üzrə bölgüsü*



Oğlanların böyük hissəsi hərbiçi, peşəkar idmançı olmaq, texnika (cihazlarla, maşınlarla, kompüterlərlə) və ya insanlarla işləmək (müəllim, satıcı olmaq) istədiklərini bildirmişdir. Hər beş qızdan ikisi müəllimə və ya satıcı olmaq, hər beş qızdan biri isə yaradıcılıqla məşğul olmaq (rəssam, musiqiçi, jurnalist olmaq) istədiyini qeyd etmişdir.

***Uşaqların gələcəkdə kim olmaq, harada işləmək istəməsi üzrə bölgüsü***




Sorğu olunan hər üç oğlandan biri və hər beş qızdan biri gələcəkdə istədiklərinə nail olacaqlarına inanırlar. Eyni zamanda, hər dörd oğlandan və dörd qızdan biri arzularının həyata keçəcəyinə inanmadığını söyləmişdir. Qalan uşaqlar isə suala cavab verməkdən imtina etmişdir.